*http://doi.org/10.58225/sw.si.2022.1.30-33*

# İŞĞALDAN AZAD OLUNMUŞ ŞUŞA ŞƏHƏRİNDƏ MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI PROBLEMLƏRİ

**Kərimli Telman-** memarlıq üzrə fəlsəfə doktoru, "Azərbərpa Elmi- Tədqiqat Layihə İnstitutu" MMC-nin direktoru, kerimlitelman@yahoo.com

**Xülasə.** Məqalə işğaldan azad olunmuş Şuşa şəhərində yerləşən memarlıq abidələrinin bərpasına həsr edilmişdir. Erməni işğalından azad edildikdən sonra müəllif memarlıq abidələrinin texniki vəziyyətinin araşdırılması məqsədilə Şuşa şəhərinə ezam olunan ilk mütəxəssislərdən olmuşdur. Daha sonra müəllif memarlıq abidələrin bərpası və konservasiyası ilə bağlı bir neçə dəfə Şuşa şəhərində olmuş, abidələr üzərində natura araşdırmaları, mühəndis tədqiqatları və fotofiksasiya işləri aparmışdır. Toplanmış materiallar əsasında məqalədə müəllif ermənilər tərəfindən dağıdılmış abidələrin texniki vəziyyətlərinə, tiplərinə uyğun olaraq bir qisminin bərpası, konservasiyası və istifadəsi ilə bağlı təkliflər vermişdir.
**Açar sözlər:** Memarlıq abidələri, qəza, yaşayış evləri, bərpa, konservasiya

# PROBLEMS ON RESTORATION OF ARCHITECTURAL MONUMENTS IN THE LIBERATED CITY OF SHUSHA

**Karimli Telman**– PhD in Architecture, director of "Azerbarpa Scientific Research Project Institute" LLC, kerimlitelman@yahoo.com

**Abstract.** This article is dedicated to a restoration of architectural monuments located in the liberated city of Shusha. The author was amongst the first group of experts assigned to Shusha in order to study the technical conditions of architectural monuments following the liberation from the Armenian occupation. The author has been to Shusha for several times regarding the restoration and conservation of architectural monuments and conducted a preliminary research, engineering investigation and photofixation on the monuments. Based on the collected materials, the author's article has suggested proposals on restoration, conservation and use of a part of the monuments destroyed by Armenians, corresponding to their technical conditions and types.
**Keywords:** Architectural monuments, disrepair, residents, restoration, conservation

**Giriş.** I Qarabağ xanı olan Pənahəli xan Sarıcalı-Cavanşir tərəfindən əsası 1752-ci ildə qoyulmuş Şuşa şəhəri əvvəl Pənahabad, sonra isə Şuşa adlandırılmışdır [2]. Şuşa şəhərindəki memarlıq planlaşdırma nöqteyi nəzərincə ilkin tikintilər Pənahəli xanın dövrünə, 1753-54-cü illərə təsadüf edir. Şəhərin tarixi qoruq hissəsi 17 məhəllədən ibarətdir. Bu məhəllələrin 9-u birinci mərhələdə, yəni 1753-54-cü illərdə, digər 8-i isə İbrahimxəlil xanın göstərişi ilə sonrakı dövrlərdə salınmışdır. Şəhərin yuxarı hissəsinin tikintisi isə Rus imperiyasının dövrünə təsadüf edir. Məhəllələr gəlmə tayfaların adları ilə adlandırılmışdır: Qurdlar, Seyidli, Culfalar, Quyulu, Çuxur, Dərdlərqurdu, Hacı Yusifli, Dörd Çinar, Çöl qala, Mərdinli, Saatlı, Köçərli, Mamayi, Xocamərcanlı, Dəmirçi, Hamamqabağı, Təzə məhəllə. Hər bir məhəllənin şərq şəhərlərində olduğu kimi məhəllə məscidi və bulağı olmuşdur [1]. Şuşa şəhərində ümumilikdə 549 qədim tikili, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansaray, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud olmuşdur. Aşağı meydan ətrafındakı Yuxarı Gövhər ağa məscidi və yanındakı mədrəsə, Şükür Mirsiyab oğlu karvansarası və yaxınlıqdakı digər abidələr mərkəz kimi heç bir məhəllənin ərazisinə daxil edilməmişdir.

Qarabağın baş qalası olan tarixi şəhərimizin orta əsr Azərbaycan şəhərsalma ənənəsinə uyğun dörd qapısı olmuşdur. Şuşa Azərbaycanın son orta əsr şəhərsalma mədəniyyətinin nadir abidəsi, Qarabağ memarlığının canlı ensiklopediyasıdır. Şuşa şəhərində 190 tikili tarix və mədəniyyət abidəsi

kimi dövlət tərəfindən mühafizə olunur [6]. Şəhərin tarixi hissəsinin qorunması məqsədilə 10 avqust 1977-ci ildə Şuşa Tarix-Memarlıq Qoruğu yaradılmışdır [4].

2020-ci ilin noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən sonra mütəxəssislər tərəfindən aparılmış monitorinqlər nəticəsində müəyyən olunmuşdur ki, şəhərdə yerləşən abidələrin əksəriyyəti ermənilər tərəfindən dağıdılmış, bəziləri tamamilə məhv edilmiş, bir qismində isə bərpa adı ilə müəyyən dəyişikliklər aparılaraq onların ilkin görkəmi dəyişdirilmişdir [3].

Şəhərin Cümə məscidi sayılan Yuxarı Gövhər ağa məscidində işğal dövründə “bərpa” adı altında dəyişikliklər aparılaraq (məsciddə mövcud olmuş ornamentlərin bir qismi məhv edilmiş, döşəməyə kreamoqranit döşənmiş, mehrabın dini yazıları məhv edilmiş və s.) ilkin görkəmi dəyişdirilmişdir. Şuşa şəhərinin tarixi hissəsində Qurdlar məhəlləsində yerləşən Aşağı Gövhər ağa məscidinin də bir hissəsi dağıdılmış, məscid qəza vəziyyətinə düşmüşdür (Şəkil 1). Saatlı məhəlləsində yerləşən Saatlı məscidi də dağıntıya və vandalizmə məruz qalaraq ilkin görkəmini itirmişdir (Şəkil 2).



**Şəkil 1.** Aşağı Gövhər ağa məscidi



**Şəkil 2.** Saatlı məscidi

Şəhərdə mövcud olmuş Köçərli, Culfalar və Mərdinli məscidləri işğal zamanı tamamilə məhv edilmiş, digər məscidlər isə dağıntıya və ya vandalizmə məruz qalmışdır. Şuşanın məhəllələri qapalı quruluşa malik olub, həyətli evlərdən - mülklərdən ibarət olmuşdur. Bu evlərin çoxu ikimərtəbəli olub, but daşlardan tikilmişdir. İri eyvanların vitrajlı pəncərələri və interyerlərdə çoxrəngli divar bəzəkləri Şuşa evlərinin özünəməxsus memarlıq xüsusiyyətlərindəndir [1]. İşğal dövründə Qasım bəy Zakirin, Hüseyn bəyin, Keçəci oğlu Məhəmmədin, S.S.Axundovun, Həsən Ağanın, Hacı Məlik oğlunun evləri və bir neçə yaşayış evləri tamamilə məhv edilmişdir. Pənahəli xanın sarayı, Hacıqulların malikanəsi, Natəvanın evi, Mehmandarovların malikanəsi, Sadıqcanın evi, Seyid Şuşinskinin evi və s. xüsusi memarlıq və tarixi əhəmiyyətə malik olan tikililər dağıntıya məruz qalmışdır (Şəkil 3, 4).



**Şəkil 3.** Natəvanın evi



**Şəkil 4.** Hacıqulların malikanəsi

Şuşa şəhərində özünəməxsus memarlığı olan karvansaralar da işğal zamanı dağıntılara və vandalizmə məruz qalmışdır. Şuşanın ən iri karvansarası sayılan Şükür Mirsiyab oğlunun, Ağa Qəhrəman Mirsiyab oğlunun və Xanlıq Muxtar karvansaraları işğal dövründə ciddi dəyişikliyə məruz qalmış, əlavə hissələr tikilərək ilkin görkəmini tam itirmişlər. Səfərov qardaşlarının karvansarası isə tamamilə dağıdılmışdır (şək.5,6).



**Şəkil 5.** İkimərtəbəli karvansaray



**Şəkil 6.** Xanlıq Muxtar karvansarayı

Şuşa şəhərinin hər məhəlləsində bulaqlar olmuşdur. İşğal dövründə bulaqlardan Aşağı Meydan bulağı, həmçinin Seyidli məhəlləsindəki və Köçərli məhəlləsindəki bulaqlar tamamilə məhv edilmiş, digər bulaqlar isə dağıntıya və vandalizmə məruz qalmışdır (şək.7, 8).



**Şəkil 7.** Mamay bulağı



**Şəkil 8.** Xan qızı Natəvan bulağı

Qoruq ərazisindən kənarda yerləşən, tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizə olunan bir çox abidələrin də aqibəti qoruq ərazisindəki abidələrin aqibəti kimidir. Keçmiş Qorki küçəsində yerləşən bir çox abidələr dağıdılmış, yararsız hala salınmış, bəziləri isə tamamilə məhv edilmişdir. Qoruğun şimal-şərq tərəfindəki Şuşa qəbiristanlığında yerləşən Molla Pənah Vaqifin 70-ci illərdə inşa edilmiş məqbərəsinin yalnız dəmir-beton karkası qalmışdır. Qasım bəy Zakirin, Molla Vəli Vidadinin və digər şəxslərin qəbirüstü abidələri isə tam dağıdılmışdır. Şəhərin yuxarı hissəsində yerləşən Qızlar və Realni məktəbləri, həmçinin Xəstəxana binası və yaşayış evləri dağıntıya məruz qalmış və ya ilkin görkəmləri dəyişdirilmişdir [3].

Şuşa şəhərinin tarixi hissəsinin bərpası və ilkin görkəminə qaytarılması məqsədilə 2021-ci ildə "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" yaradıldı [5]. Məlumdur ki, Şuşanın tarixi hissəsi 2001-ci ildə YUNESKO-nun Dünya Mədəni İrs Siyahısının İlkin siyahısına daxil edilmişdir. Bu məqsədlə YUNESKO-nun tələblərini, Şuşanın tarixi görkəminin qaytarılmasının vacibliyini, şəhərin tarixi əhəmiyyətini nəzərə alaraq Şuşa şəhərində aparılacaq bərpa və yenidənqurma işlərinin dərin elmi-tədqiqat əsasında aparılması mütləqdir.

Bununla bağlı həm müvafiq dövlət qurumları, həm də ictimaiyyət bu işə cəlb olunmalıdır. Şuşa şəhərinə ziyarət edənlərə erməni vandalizmini göstərmək üçün hər hansı bir məhəllə ərazisinin konservasiya olunaraq qorunub saxlanılması daha məqsədəuyğun olardı. Hazırda müvafiq qurumlar tərəfindən şəhərin baş planı hazırlanır. Baş plana uyğun olaraq şəhərdə yenidənqurma işləri, infrastruktur layihələri, şəhərin tarixi hissəsində isə qoruq tərəfindən bu istiqamətdə abidələrdə müəyyən bərpa işlər aparılır. Qısa zaman ərzində Vaqifin türbəsində, Mamay bulağında, Bülbülün evində, Mehmandarovların evində və s. abidələrdə bərpa işləri aparılmışdır (şək.9, 10).



**Şəkil 9.** Vaqif türbəsi



**Şəkil 10.** Bülbülün evi

Abidələrin müasir istifadəsi onların qorunması üçün vacib şərtlərdən biridir. Bu məqsədlə məscidlərin və bulaqların bərpa olunaraq ilkin təyinatı üzrə istifadə olunması vacibdir. Yaşayış evlərinin bir qisminin, həmçinin karvansaraların turizm obyektləri**-** mehmanxana, restoran, bazar kimi, bir qisminin isə mədəniyyət müəssisələri kimi– muzeylər, rəsm qalareyaları və s. kimi istifadəsi də mümkündür. Şuşa şəhərinin təsdiq olunucaq baş planına uyğun olaraq bu abidələrin gələcək istifadəsi ilə bağlı fikir yürütmək daha məqsədəuyğun olardı.

**Nəticə.** Beləliklə, Şuşa şəhərində nəzərdən keçirdiyimiz abidələrdə aparılmış ilkin araşdırmalar aşağıdakı nəticələri söyləməyə əsas verir:

**-** İşğaldan sonra abidələrdə aparılan ilkin monitorinqlər nəticəsində onların fiksasiyası aparılmış, texniki vəziyyətləri müəyyən olunmuş, arxiv materialları ilə müqayisəli təhlili aparılmış, abidələr üzərində aparılan dəyişikliklər və dağıntılar müəyyən edilmişdir.

**-** Mövcud vəziyyətlərinə uyğun olaraq abidələrdə bərpa və ya konservasiya tədbirlərinin görülməsi və onlardan istifadə olunması haqqında ilkin təkliflər irəli sürülmüşdür. Şuşa şəhərinin turizm potensialını nəzərə alaraq, qeyd olunan abidələrin gələcəkdə turizm marşrutlarına daxil edilməsi əsas istiqamət kimi qəbul edilməlidir.

**Ədəbiyyat.**

1. Avalov E. "Şuşanın memarlığı", Bakı. 1977
2. İsmayılov İ. "Azərbaycan mirvarisi - Şuşa", Bakı. 2015
3."Azərbərpa ETLİ" MMC-nin arxiv materialları.
4. Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli 280 nömrəli Qərarı
5. Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il tarixli 1375 nömrəli Fərmanı
6."Daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı

*http://doi.org/10.58225/sw.si.2022.1.34-38*

# TARİXİ ŞƏHƏRLƏRİN MÜASİR İNKİŞAFINDA KOMPOZİSİYA HƏLLİNİN ROLU

**Mustafayeva Fidan-** m.ü.f.d., Memarlığın əsasları kafedrası, AzMİU,
fidan.mustafayeva@azmiu.edu.az

**Xülasə.** Tarixi ərazilərdə yeni şəhərlər formalaşdırarkən burada mövcud tarixi abidələr və yeni ideyalar arasında tarazlıq, dolğun memarlıq-kompozisiya mühiti yaratmaq vacibdir. Mövcud tarixi mühit təkmilləşdirilərkən ərazinin mühafizə problemi aktuallığını qorumalıdır. Eyni zamanda, yeni şəhərsalma həllinin həyata keçirilməsi üçün konkret təkliflər planı hazırlanmalıdır. Şuşa şəhəri uzun illər ərzində tarixi irsi, dəyərli memarlıq abidələri, təbii landşaftı, qədim ansambılları və arxeoloji baxımdan dəyərli mədəni abidələri, yaşayış məntəqələrini özündə cəmləyib. Mövcud vəziyyətdə şəhərin memarlıq simasının təşkilində həm nəzəriyyəçi, həm də təcrübəçi memar və şəhərsalma mütəxəssislərinin iştirakı vacibdir. Hazırda, tarixi və mədəni baxımdan dəyərli Şuşa şəhərinin baş planında yeniliklər təklif edildiyi təqdirdə şəhərin gələcək memarlıq-kompozisiya inkişafına maneə törədən problemlərin müəyyən olunması və müsbət istiqamətdə həllinə nail olmaq lazımdır.
**Açar sözlər:** tarixi ərazilər, yaşayış məntəqələri, memarlıq abidələri, müasir şəhərlər, memarlıq kompozisiyası, rekreasiya zonaları

# THE ROLE OF COMPOSITE SOLUTIONS IN THE MODERN DEVELOPMENT OF HISTORICAL CITIES

**Mustafayeva Fidan-** PhD in architecture, department of Basics of architecture, AzUAC,
fidan.mustafayeva@azmiu.edu.az

**Abstract.** In the process of forming new cities in historical territories, it is important to create a balance between existing historical monuments and new ideas, a full-fledged architectural and compositional environment. The problem of protecting the territory should remain relevant while improving the existing historical environment. At the same time, a plan of specific proposals for the implementation of a new urban planning solution should be developed. For many years, the city of Shusha included historical heritage, valuable architectural monuments, natural landscapes, ancient ensembles and archaeologically valuable cultural monuments, settlements. In the current situation, it is important to involve both theorists and practicing architects and urban planners in the organization of the architectural image of the city. At present, if innovations are proposed in the general plan of the city of Shusha, which has historical and cultural value, it is necessary to identify problems that hinder the future architectural and compositional development of the city and achieve their positive solution.
**Keywords:** Historical districts, settlements, architectural monuments, modern cities, architectural composition, recreation zones

**Giriş.** Yaşayış məntəqələrinin layihələndirmə prosesində şəhərsalma ansamblının kompozisiya cəhətdən şəhərin memarlıq-mühit strukturu ilə qarşılıqlı əlaqədə olması əsas şərtdir. Məsələ bu şəkildə həll olunarsa-yaşayış rayonun şəhərdə yerləşmə istiqaməti, ərazinin təbii landşaft xüsusiyyətləri, rayonun baş planının kompozisiya həllində yeri kimi amillərin nəzərə almağı tələb olunur. Yaşayış məntəqələrinin kompozisiya həlli prosesində əsas olan ərazidə ictimai həyatın mərkəzinin müəyyən olunması və onun daxili funksional-mühit təşkilidir. Bütün bu amillərin nəzərə alınması ilə layihələndirilmiş rayon modeli şəhərin silueti, panoramasını, eyni zamanda rayonun daxili və yaşayış mühitini inkişaf etdirməli və zənginləşdirməlidir.

**Əsas hissə.** Yaşayış məntəqələrinin təşkili prosesində nəzərə alınmalı amillərdən biri insanların hətta aşağı sürətli külək olsa da şaxtalı havanı çətin keçirməsidir. Lakin isti hava şəraitində hətta aşağı

sürətli külək insan orqanizminə müsbət təsir göstərir. Bu səbəbdən külək amilinin şəhər mikroiqliminin formalaşması prosesində vacib şərt olduğu məlumdur. Mikroiqlimi formalaşdıran yaşıl əkililər zolağının əhəmiyyətinin təsdiqinə çoxsaylı gigiyena, iqlim, bitki mütəxəssisləri və bioloqların elmi əsərlərində rast gəlinir. Tarixi şəhərlərin baş plan təşkilində infrastrukturun formalaşma prosesində atmosfer yağıntıları, çay və göllərin mövcudluğu, günəş radiasiyasının intensivliyi, davamiyyət müddəti, külək rejimi, atmosfer təzyiqi nəzərə alınmalıdır.

Layihələndirilən tikilinin şəhər və ona birləşən rayonların mühit strukturuna uyğunlaşması ilk əvvəl orada olan magistral yolları və küçələrin memarlıq həlli ilə müəyyən olunur. Kiçik yaşayış məntəqələrinin məkan təşkilinin fərqli və müxtəlif formalı olması ilk növbədə onun ölçüləri və situasiya xüsusiyyətlərindən asılıdır. Şəhərlərin yenidənqurma və inkişaf perspektivləri prosesinin əsas tələbləri kimi küçə və bağların ərazisində insanlar üçün dəyişkən mənzərələrin mövcudluğunun vacibliyini qeyd edə bilərik.

Şəhər və əkin sahələri və ya meşə ərazisi arasında olan şəhərətrafı landşaft şəhər regionunun inkişaf tempində böyük rol oynayır. Şəhərətrafı zona-mənbə, axın və eyni zamanda filtr sayılır. Şəhərdə ehtiyac hiss edilən bir çox amillər və insan psixologiyası üçün önəmli, peyzaj amili şəhərətrafı zona hesabına yaradılır. Şəhərətrafı zona hesabına rekreasiya zonalarının səmərəli həlli təşkil olunur. Məlumdur ki, şəhərətrafı zonaları düzgün təşkil etməklə şəhərin ekolojini balansını tarazlıqda saxlamaq mümkündür.

Bu, amillər şəhərətrafının həm mənbə, həm də mənsəb olduğunu sübut edir. Şəhərin iqtisadi fəaliyyəti sərnişin axınından və onun yarıtəbii landşafta malik parkları, daima ətrafdan yeni bitki zolağı müdaxiləsi olan yaşıllıq zonasından asılı ola bilər. Başqa sözlə, şəhərin ümumi sanitar-gigiyenik vəziyyəti, regional sisteminin birbaşa şəhərətrafı zonaları ilə əlaqəlidir [9].

Kiçik yaşayış məntəqələrinin məkan təşkilinin fərqli və müxtəlif formalı olması ilk növbədə onun ölçüləri və situasiya xüsusiyyətlərindən asılıdır. Şəhərlərin yenidənqurma və inkişaf perspektivləri prosesinin əsas tələbləri kimi küçə və bağların ərazisində insanlar üçün dəyişkən mənzərələrin mövcudluğunun vacibliyini qeyd edə bilərik [1].

Bir çox sahələr şəhərlərin və digər yaşayış məntəqələrinin ictimai sahələrin keyfiyyəti ilə əlaqədardır. Bu, şəhərsalma mütəxəssislərinin və çox vaxt landşaft memarlarının diqqətini cəlb edən faktdır. Bununla belə, şəhərin layihələndirmə həlli, landşaft memarlığı, mülki mühəndislik (hazırda daha çox ekoloji layihələndirmə adlanır) və memarlığın ənənəvi, üst-üstə düşən problemlərini həll edən sahə inteqrativ layihələndirmə adlanır. Bu, amil konkret olaraq yeni şəhərlər, yeni şəhərətrafı qəsəbələr, yeni yaşayış məntəqələri, şəhərin baş planının yenilənməsi, şəhər meydanları və küçələrinin layihələndirilməsi ilə əlaqədardır. Sadalanacaq amillərin sayı demək olar ki, sonsuzdur. Geniş formada desək, tək bir problem var: şəhər və rayon səviyyəsində ictimai, şəhər mühitinin layihələndirilməsi [2].

Müasir şəhər layihələndirmə prosesində dəyişən tələbat və bu şəraitə uyğunlaşan dinamik planlaşdırma strukturu bir çox hallarda tətbiq olunmalıdır. Bu səbəbdən şəhərin yaşıllıq həllinə aid problemlər daima mürəkkəbləşir və prosesdə müxtəlif element dəyişikliyi olur [6]. Şəhər mühitinin formalaşması həm urbanizasiya olunmuş ərazinin inkişafının transformasiyasını, həm də bütövlükdə memarlıq və bədii mühitin yaradılmasını əhatə edən davamlı bir prosesdir. Memarlıq və tarixi mühitin yaradılması on illiklərdən artıqdır ki, davam edir-bu, insanların bir çox nəsillərinin əməyi və ehtiyaclarının ödənilməsidir. Hər bir zaman dövrü memarlıq tikilisinin simasında, binaların üslub həllinin xüsusiyyətlərində iz buraxır, onu xüsusi əşyalar və mahir memarların əsərləri ilə zənginləşdirir.

İstənilən şəhərin görkəmi bilavasitə müasir memarlıq obyektlərinin tikintisi və eyni zamanda xüsusi dəyərə malik tarixi binaların qorunub saxlanması ilə bağlıdır. Şəhərin memarlıq abidələri ilə zəngin hissəsində çalışan mütəxəssisin ilk işi bu amilləri uyğunlaşdırma olmalıdır. Eyni zamanda, mövcud olduğumuz məkan mühitinin formalaşması üçün əsas ilkin şərtlər sosial-iqtisadi və mədəni şəraitdir. Şəhərin inkişafı onun boş sahələrə ehtiyacını artırır. Urbanizasiya olunmuş ərazinin tarixi əsasını nəqliyyat, mühəndis kommunikasiyaları və müxtəlif funksional təyinatlı obyektlərlə zənginləşmə baxımından əsas yükü təşkil edən mədəniyyət, iş və ticarət mərkəzi təşkil edir. Yeni

əsaslı tikinti obyektlərinin şəhərin tarixi hissəsində düzgün yerləşdirilməsi üçün planlaşdırılmış ərazinin yaxınlığında memarlıq abidələrinin olmasının ətraflı təhlili və onların dəyərini müasir vasitələrlə vurğulamaq imkanları zəruridir. Əks halda, yeni tikili mövcud tikililəri dəyərsizləşdirə və ətraf mühitin memarlığı, bədii bütövlüyünü poza bilər.

Şuşa şəhəri Azərbaycan memarlıq istiqamətinin ən gözəl örnəklərindəndir. Bu tarixi şəhərin memarlıq simasının yenidən qurulması, tarixi-mədəni irsinin qorunub saxlanılması üçün xüsusi tələblər irəli sürülməlidir.

Şuşanın zəbt olunduğu illər ərzində - səkkiz muzey, on yeddi mədəniyyət klubu, otuz bir kitabxana, səkkiz mədəniyyət klubu, səkkiz uşaq musiqi məktəbi, Dövlət Rəsm Qalereyası, iki yüz qırx səkkiz memarlıq abidəsi kimi çoxsaylı memarlıq nümunələrinin dağıntısı baş vermişdir. Əlavə təhlillərə əsasən, altı yüzə yaxın tarixi abidə, yeddi məktəbəqədər uşaq müəssisəsi, iyirmi iki ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumunu da bu abidələr siyahısına əlavə edə bilərik [2].

Tarixi və mədəni əhəmiyyətə malik şəhərlərdə mühit kompozisiyası və strukturunun öyrənilməsi üçün şəhər sisteminin tikinti üslubuna diqqət yetirmək lazımdır. Təbii ki, şəhərin coğrafi mövqeyi, burada mövcud iqlim qurşağı amillərini də qeydə almaq lazımdır.

Qarabağ ərazisində qədim insan məskənlərinin mövcudluğu çoxsaylı elmi və arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur. Cıdır düzündə, Üçmıx dağında mövcud Şuşa mağarası ən qədim insan məskənlərindən biridir [3].

Şuşa şəhərində üç yüz tarixi abidə üç yüz əlli hektarlıq qoruq ərazisində yerləşirdi. Bununla yanaşı, beş yüz əlli qədim yaşayış binası, səkkiz yüz yetmiş metr uzunluğa malik, bərpa olunmuş qala divarları da mövcud olmuşdur. Burada mövcud tarixi abidələrin iyirmi üçü respublika və dünya miqyasında olmuşdur. Həmin abidələrin çoxu XVIII-XIX əsrdə inşa olunmuşdur [4], (Şəkil 1).



**Şəkil 1.** Qara Böyük xanım qəsri. XVIII əsr

Tarixi şəhərlərdə yenilənmə prosesində ən əsas tələblərdən biri qədim tikinti ənənələri və formasının qorunmasıdır. Burada əsas məqsəd tikinti üsulunun hazırda mövcud memarlıq abidələri ilə vəhdət təşkil etməsidir. Ötən əsrin sonlarında tarixi şəhərlərdə bərpa işlərinin təşkilində sadəcə memarlıq abidəsi və yaxın ətrafı təhlil olunurdu. Artıq illərdir ki bu prosesdə ümumi şəhər mühiti və

şəhərsalma həlli nəzərə alınır. Çünki, həmin tarixi-memarlıq abidələri həm tikinti üslubu, həm də şəhər mühitini təşkil edir.

Tarixi şəhərlərin layihələndirilməsində ümumi və lokal xüsusiyyətlərin təyin olunması şəhərin müxtəlif elementlərinin dəyəri və onları formalaşdıran amilləri görmək mümkündür. Həmçinin, tarixi şəhərlərin təhlili prosesində mövcud abidələrin dəyəri və hazırki vəziyyəti də ən önəmli amillər sırasındadır.

Tarixi şəhərlərin inkişaf prosesində şəhərsalma həlli və tikintisinin sərhədləri diqqətə alınmalıdır. Kartoqramların hazırlanması prosesində mövcud yaşayış məskənlərinin tarixi və üslubu təyin olunur. Eyni zamanda ərazinin tarixi-şəhərsalma ənənələri qeydə alınmalıdır. Ənənəvi kateqoriya və ya qədim ənənələrə uyğun məntəqələrin çərçivəsində təhlillər aparılır [5].

Bu proseslərdə ayrı-ayrı yerləşən memarlıq abidələrinin ümumi şəhər mühitində yeri təyin edilməlidir. Daha sonra şəhərsalma həlli zamanı bu abidələr yeni tikililərlə vəhdət və şəhərin kompozisiya həllinin nüvəsini təşkil etməlidir. Tarixi abidələrin yeni şəhər sisteminə uyğunlaşması çətin bir prosesdir. Ona görə də memarlıq abidəsinin şəhərsalma sistemindəki rolunu müəyyən etmək vacibdir.

Memarlıq ansambılları, aksentləri, kompozisiya balansı və başqa amillərdən ibarət şəhərin kompozisiya sisteminin həlli formasını təhlil etmək vacibdir. Şəhərsalma kompozisiyasının vəziyyəti müəyyən olunduqdan sonra kompozisiyanın təsir əraziləri təyin edilməlidir. Bununla zonalaşma sərhədlərinin təyin etmək mümkündür. Eyni zamanda kompozisiya təsirinin müəyyən edilməsi nəticəsində yenidənqurma prosesinə ehtiyacı olan ərazilər təyin olunur (şək. 2).

Azərbaycanın təbii (rəngarəng və çoxşaxəli) xüsusiyyətlərinin nəzərə alınması məsələsi layihələndirilmənin makro və mikroregional amillərinin yaranmasında əmələ gələn problemləri əks etdirir.

Tədqiqatçıların son illərdə apardığı təhlillərin nəticəsi Qarabağ ərazisində 24 su anbarının mövcud olduğunu göstərir və bu tikililərin əksəriyyəti qəzalı vəziyyətdədir. Bu qurğuların yeddisinin balıqçılıq istiqamətində istifadə olunduğu bildirilir. İyirmi iki su anbarı meliorasiya məqsədləri və digər ikisi enerji təyinatlı istifadə olunur [7]. Ərazi üçün inkişaf planı hazırlandığı prosesdə ərazinin təbii landşaft ehtiyyatları və su hövzələri mütləq nəzərə alınmalıdır.



**Şəkil 2**. Şuşa. Realnı məktəbi, XIX əsr

Ölkə səviyyəsində ekoloji layihələndirmə şərtləri və üsulları ümumilikdə layihələndirmə prosesinin əsasını təşkil edir. Dayanıqlı rekreasiya sisteminin əsas elementi-rekreasiya ehtiyyatlarıdır. Tarixi-mədəni rekreasiya zonalarının təşkili prosesi bu amillərin sahəsi və keyfiyyəti ilə əlaqəlidir. Eyni zamanda ərazinin rekreasiya ehtiyyatları təbii mühit və tarixi-mədəni ehtiyyatlardan asılıdır.

**Nəticə.** Tarixi- mədəni əhəmiyyətə malik şəhərlərdə yenidənqurma proseslərinin əsasını bir neçə amil və konsepsiya həlli təşkil edə bilər:

—Düzxəttli kompozisiya həlli təklif etməklə yerli memarlıq xüsusiyyətlərini küçələr boyu nümayiş etdirmək mümkündür. Bununla yanaşı tikili və ətrafının kompozisiya həlli çoxformalı ola bilər. Həmçinin, milli memarlıq üslubunu təmsil edən binalardan ibarət kompozisiyanı şəhərin baş plan həllinə daxil etmək düzgün addım olardı.

—Təbii su mənbələrinin mövcud olduğu ərazilər rekreasiya zonalarının layihələndirilməsinə münbit şərait yaradır. Şuşa ərazisində mineral sular, bulaqlar, və çaylar mövcuddur. Ərazidə zəngin flora və fauna növlərinin mövcudluğu burada rekreasiya zonalarının yaradılması üçün əlverişlidir.

**Ədəbiyyat**

1.Abbasov Z., Çəmənli M. Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir. Bakı Təhsil. 48 s. 2012
2.Abdullayev N., Mustafayev C. və b. Şuşa-Qədim Azərbaycan Diyarı. Bakı:. A.M.K, 41 s. 2009
3.Əliyev Z.B.“Qarabağ Zəfəri-Şuşa”. Bakı: “OPTİMİST” MMC. 2021
4.Əliyev Z.B. “Şuşa, Schuscha, Шуша, Shusha, Choucha”. Bakı: “OPTİMİST” MMC, 94 s. 2017.
5.Muradov V.H. Tarixi şəhərin layihələndirmədən əvvəl tədqiqi. Bakı: Memar NP MMC, 123 s. 2005
6.Mustafayeva F.V. Böyük şəhərlərdə rekreasiya sisteminin tipoloji xüsusiyyətlərinin inkişafı. “Elmi əsərlər” 2020 № 2, “AzMİU Nəşriyyat-Poliqrafiya”, 159 s. 2020
7.Mustafayeva F.V. Müasir hidrotexniki qurğuların şəhərsalma inkişafı. Bakı: Radius, 100 s. 2021
8.Котлярова Е.В., Дворников Ю.Я. Принципы проектирования городской архитектурной среды. Ростов н/Д: Рост.гос. строит. ун-т, 93 с. 2014
9.Forman R.T.T. Urban Regions Ecology and planning beyond the city. New York: Cambridge University Press, 408 p. 2008
10. Lang J. Urban Design: Atypology of procedures and products. U K: Architectural Press, 254p. 2005